

**Məsimov Rauf Qafar oğlu**

Rauf Qafar oğlu Məsimov 1992-ci il iyulun 11-də Tovuz rayonunun Çatax kəndində anadan olub. 1998–2009-cu illərdə X. Cəfərov adına Çatax kənd tam orta məktəbində təhsil alıb.

2010–2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Rauf Məsimov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Zəngilan və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq iştirak edib. Rauf Məsimov Xocavənd rayonu istiqamətində gedən döyüşlər zamanı şəhid olub. 21 noyabr 2020-ci il tarixdə Tovuz rayonunun Çatax kəndində dəfn olunub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamları ilə əsgər Məsimov Rauf Qafar oğlu "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.